# Milli Kitabxanada Zəfər Günü ilə bağlı elektron məlumat bazası təqdim edilib

**8 Noyabr Zəfər Günü münasibətilə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Zəfər Günü şanlı tariximizdir!" adlı elektron məlumat bazası onlayn rejimdə istifadəçilərə təqdim edilib.**




Kitabxanadan bildirilib ki, elektron məlumat bazası "Rəsmi sənədlər", "Zəfər paradında Prezident İlham Əliyevin nitqi", "Zəfərlərimiz", "II Qarabağ müharibəsi şəhidləri", "Nəşrlər", "Xatirəsinin əbədiləşdirilməsi", "Müharibə iştirakçılarına verilən orden və medallar", "Fotoqalereya" və "Videoqalereya" bölmələrindən ibarətdir.

Elektron məlumat bazası ilə tanış olmaq istəyənlər linkindən istifadə edə bilərlər.

Azərbaycan. - 2024.- 6 noyabr (№ 245).- S.11.